


**Redaksiyadan: Zaur Talıbov 1974-cü ildə İmişli şəhərində anadan olub. Gənc yaşlarından torpaqlarımızın müdafiəsi uğurunda mübarizəyə qoşularaq, Qarabağın müxtəlif bölgələrində, o cümlədən Ağdamın müdafiəsində gedən qanlı savaşın iştirakçısı olub. Döyüşlərin birində ayağından güllə yarası alıb. Hazırda xırda təsərrüfatla gündəlik ruzisini qazanır. Zaur Talubov deyir ki, şeiri çox sevir və hərdən özü də hiss və duyğularını şeirlə bildirir. Şeirləri bugünə qədər heç yerdə çap olunmayıb. Deyir şeir yazmaq məsuliyyət tələb etdiyindən onları çap etdirməkdən çəkinib.**

**Bəlkə ruhlanıb daha samballı şeirlər yazacağını nəzərə alıb Zaur bəyə tirubuna verməyi qərara aldıq.**

### QARABAĞ

Yarın yaylığını alıb əlindən
Apardın palıdın yarpağı kimi.
Bir ovuc torpaq ver sürtüm gözümə,
Müqəddəs Qarabağ torpağı kimi.

Vətən kamalından dərs aldı İlham
Dəmir yumruğuyla səs saldı İlham.
Bu gün ürəklərə həkk oldu İlham,
Doğma torpaqları qaytaran kimi.

Bizə dayaq oldu prezidentimiz,
Hər yerdə sayıldı prezidentimiz.
Şuşanı, Laçını qaytaran zaman
Düşübdür tarixə prezidentimiz.

Məni vətənimə, daşına dola
Vətənə qurban de başına dola.
Ölsəm köynəyimi qanıma bula,
Qaldır Azərbaycanın bayrağı kimi.

***

### ŞƏHİDLƏR

Müqəddəs yaranıb yaranmışından,
Əbədi gözlərin yumdu Şəhidlər.
Vətən uğrunda, vətən yolunda
Əziz canlarından keçdi Şəhidlər.

İstər əlli yaşa, istər yüz yaşa
Şuşada yaşamaq nəsibdir bizə.
Tökülən qanlari qalxsa da dizə
Bitib tükənməyən sirdi Şəhidlər.

Vağzalı çalınır ürək titrəyir,
Çalğısı gələndə vətən səsləyir.
Zaur da Allahdan dua diləyir,
Arzusu yarıda qalan Şəhidlər.

***

### BAYRAQ

Gözləyir kağızı, qələmim masam,
Ucadan ucasan üçrəngli bayraq.
Sənli misraları tamamlamışam,
Səmada dalğalan üçrəngli bayraq.

Həyat düzgünlüyün bildiyim üçün
Mütləq ya qəlbimdə, ya səmadasan.
Müstəqil Azərbaycan əsgəri üçün
Səmada dalğalan üçrəngli bayraq.

Keçdim həyatımın zülüm dərsini
Vətənə, bayrağa sevgi hissini.
Tarixə çevirdim ömür izimi,
Səmada dalğalan üçrəngli bayraq.

Bəxş etdik bayrağa öz sevgimizi,
Göstərdik düşmənə öz gücümüzü.
Oxşar taleyi var hər ikimizin,
Səmada dalğalan üçrəngli bayraq.

***

### DÜNYA

Müqəddəs yaranıb, yaranışından
Nə böhtandı dünya, nə şərdi dünya.
Rafiq ata şirindir, Güllər ana gözəl,
Aliki əbədi apardı dünya.

İstər əlli yaşa, istər yüz yaşa,
Qoynunda yaşamaq bizə təsəlli.
Nə ilki bəllidir, nə sonu bəlli,
Hey oxu, tükənməz əsərdi dünya.

Söküldü saraylar, dağıldı damlar,
Ay Alik, işləri korladı xamlar.
Olmasa Sərxanlıda yaxşı adamlar,
Allahın gözündən düşərdi dünya.





***

### Məhərrəm müəllim

*(Gözəl qardaş, mehriban insan və qayğıkeş ailə başçısı olan Məhərrəm qardaşıma itihaf edirəm.)*

Varsa qismətində şərəfli ad-san,
Olmaz həyatında nə şöhrət, nə şan.
Ürəyi nur dolu bir gözəl insan,
Bizim sevimlimiz Məhərrəm müəllim.

Cavanlıq arxada, qocalıq öndə,
Zaman dəyişibdir həyatda, anda.
Hamıya qoşulub deyirəm mən də,
Bizim sevimlimiz Məhərrəm müəllim,

Nüfuzun dolaşır eldə, cahanda,
Buz tutmuş sular da hətta axanda,
Dünya nur çiləyir sizə baxanda,
Bizim sevimlimiz Məhərrəm müəllim.

Ləpələnir hətta xəyal dənizi,
Qoy solmasın simanızın bənizi.
Harayına çatsın Adəm kənizi,
Bizim sevimlimiz Məhərrəm müəllim.

***

### VƏTƏNİM

Nədən ağlayırsan, nədən gülürsən,
Arzusu qəlbində qalan Vətənim.
Mənim ürəyimi qoparan-qıran,
Məni əzablara salan Vətənim.

Yaman bağlanmışam sənə, bilirəm,
Hər zaman, hər an da deyib gülürəm.
İnan ki, həsrətdən hər an ölürəm,
Çox şükür azadsan,azad Vətənim.

Həsrətini neçə ildi çəkirəm,
Ürəyimdə vətən qəmi əkirəm.
Şeirimlə sənə qala tikirəm,
İndi mən xoşbəxtəm, xoşbəxt Vətənim.

***

### YOLLARDAYIQ BİZ

Bu gün həyatımın duyğu dənizi,
Niyə solğun görünür bunun bənizi?
Aynur da Hövsəna səsləyir bizi,
Gör bir necə çətin yollardayıq biz.

Bu qız öz əhdinə sadiq qalacaq,
Arzunu, sevgini, hissi duyacaq.
Bilirəm bir xoşbəxt ana olacaq,
Gör bir necə çətin yollardayıq biz.

Mənim arzularımı qoparacaqsan,
Ümid, taleyimi aparacaqsan.
Atanın mülkündə oturacaqsan,
Gör bir necə çətin yollardayıq biz.

Zauram, həyatdan ilham alacam,
Sənin ürəyində tənha qalacam.
Gecikmiş arzuna günəş olacam,
Gör bir necə çətin yollardayıq biz.

***

### QARDAŞ

Sən gedəni güllər soldu, gəlmədin,
Xəstə düşdüm heç dərdimi bilmədin.
Bundan sonra heç vaxt üzüm gülmədi
Sənsə öz obana dönmədin, qardaş.

Səhər tezdən hey yolunu gözlədim,
Gəlib keçən maşınları izlədim.
Gözlərimin nur işığın bizlədim
Sənsə öz obana dönmədin, qardaş.

Artıq qocalmısan dönməlisən sən,
Atanı ziyarət etməlisən sən.
Bu dərdi ölüncə bilməlisən sən
Sənsə öz obana dönmədin, qardaş.

***

### QORXUTMAZ MƏNİ

Mənim yollarımda düşmən olsa da,
Qorxuda bilməyir heç zaman məni.
Mənim gəncliyimdə həyat solsa da,
Qorxutmaz nə yağış, nə də qar məni.

Belə yaradıbdır məni Allahım,
Ömrümdə, günümdə çox idi ahım.
Bu gün yollarımda vardır fərahım,
Qorxutmaz heç zaman ağrılar məni.

Mənim ah-naləmə səs verən elim,
Enişi-yoxuşu mən özüm bilim.
Zəhrə dönsədə ağzımda dilim,
Qorxutmaz yoxsulluq, səfalət məni.

Zauram, ömrümü vursam da başa,
Arzularım heç vaxt dəyməsin daşa.
Məlahət, izimlə addımla qoşa
Qorxutmaz heç zaman bu addım səni.